**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

**DOI: 10.59610/bbu1.2023.108-117**

*Fərhadi Püstə Oruc qızı,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti,*
*E-mail: emin.turant1@gmail.com;*
*Rəsulova Günay Rasim qızı*
*doktorant,*
*Bakı Biznes Universiteti,*
*E-mail: gunay.kerimova85@mail.ru*
*© Fərhadi P.O., Rəsulova G.R., 2023*

**UOT – 331.1**

# HEYDƏR ƏLİYEVİN İQTİSADİ İNKİŞAF STRATEGİYASINDA İNSAN KAPİTALININ FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

## X Ü L A S Ə

Heydər Əliyev müasir demokratik Azərbaycanın yaradıcısıdır. Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

**Açar sözlər:** insan kapitalı, iqtisadiyyatın inkişafı, təhsil, rəqəmsal təhsil, rəqəmsal texnologiya.

## G İ R İ Ş

Bəşər siyasi-ictimai tarixində dahi şəxsiyyətlər cəmiyyətin inkişafında müstəsna xidmətləri ilə fərqlənərək tarixi proseslərin inkişafına əhəmiyyətli təkan vermişlər. Hər bir xalqın yüksək dühası yetişdirdiyi korifeylərin simasında öz əksini tapmışdır.

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Ulu Öndər Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifə-

**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

ləridir. Ulu Öndər Heydər Əliyevin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soykökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz su-

AUDİT 2023, 1 (39), səh. 108-117.
AUDIT 2023, 1 (39), pp. 108-117.
АУДИТ 2023, 1(39), стр. 108-117.

verenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Bu gün Azərbaycan dövləti müstəqilliyi yolunda, demokratik təsisatların inkişafı istiqamətində addımlayır və XX əsrin son 35 ili Azərbaycan tarixi üçün Heydər Əliyev dövrünü əks etdirmiş, çağdaş tariximiz onun adı ilə bağlı olmuşdur.

Azərbaycanın şanlı tarixin ən yadda qalan dövrlərindən biri olan suverenliyimizin əldə edilməsi və Ümumilli Liderimiz Heydər Əliyevin rəhbərliyi altında müstəqilliyimizin daha da möhkəmlənməsi istiqamətində həyata keçirtdiyi məqsədyönlü siyasəti Azərbaycan xalqının istiqlaliyyət əzmini bütün dünyaya nümayiş etdirmişdir. Ümumilli liderimiz xalqa onun böyüklüyünü, qabiliyyət əzmini, haqqa, ədalətə inamını qaytarmış, əmin-amanlıq arzusunu həqiqətə çevirmişdir.

"Qalx ayağa, Azərbaycan" ifadəsi məhz Heydər Əliyevin taleyin hökmüylə ikinci dəfə siyasi hakimiyyətə gəlişində öz həqiqi mənasını kəsb etmişdir. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı torpağı düşmən tapdağı altında qalmış, əhalisi öz doğma yurd-yuvasından didərgin salınmış, daxildə yaranmış anarxiyadan, hakimiyyətisizlikdən cana doymuş millətin ümid çırağını yandıraraq gələcəyə inamını artırmışdır. Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev oldu.

**Ulu Öndər Heydər Əliyev siyasətinin xronologiyası**

Müstəqil ölkəmizin dövlət siyasəti əbədi öndərimiz Heydər Əliyevin müdrik, perspektivli, titanik fəaliyyətinin, qeyri-adi siyasi, dövlətçilik və diplomatik istedadının və təcrübəsinin üzərində qurulub.

Ümummilli Liderimizin gənc, müstəqil respublikamızın dövlət suverenliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi, naminə göstərdiyi yorulmaz fəaliyyətinin sayəsində Azərbaycan beynəlxalq aləmdə nüfuzu yüksəlmiş, ölkədə aparılan demokratik hüquqi islahatlar dönməz xarakter almışdır. Uğurlu siyasi xəttin nəticəsidir ki, aparıcı dünya dövlətlərinin respublikamıza diqqət və marağı artmışdır. Xarici dövlətlərlə siyasi-iqtisadi, elmi-mədəni və digər sahələrdə, əməkdaşlıq haqqında ikitərəfli və bərabər hüquqlu müqavilələr imzalanmış, Azərbaycan iqtisadiyyatına xarici investisiyalar cəlb edilmişdir.

Bu gün müstəqil Azərbaycan Respublikasının bütün uğurlarına Heydər Əliyev imza atmışdır. Heydər Əliyevin yorulmaz və gərgin fəaliyyəti nəticəsində möhkəm dövlətçilik bünövrəsi üzərində qurulmuş möhtəşəm Azərbaycan dövləti XXI əsrdə də, 3-cü minillikdə də mövcud olacaq və Heydər Əliyev imzası daim bu möhtəşəmliyi təcəssüm etdirəcəkdir.

Tarixin hər bir dövründə müdrik şəxsiyyətlərin ümumbəşəri mahiyyət daşıyan fəaliyyəti, ilk növbədə, mənsub olduqları xalqın ictimai tərəqqisində mühüm rol oynamaqla yanaşı, böyük, zəngin əhəmiyyəti ilə dəyərli örnəyə çevrilir.

Dahilik yalnız qüdrətli təfəkkür sahibi olmaq deyildir. Əsl dahilik işıqlı zəkasının sarsılmaz gücü ilə zamanı qabaqlamaq və bütöv bir millətin, xalqın məsuliyyət yükünü öz çiyinlərində çəkmək, milyonları arxasınca apara bilmək istedadıdır. Azərbaycanın son yüz illik tarixində ən parlaq şəxsiyyət səviyyəsinə yüksəlmiş Ulu Öndərimiz Heydər Əliyevdə bu keyfiyyətlər özünün məntiqi bağlılığını tapmışdır. Tarixdə çox az dövlət rəhbəri tapılar ki, o bütün xalq tərəfindən Ümummilli Lider olaraq qəbul edilmiş müstəsna dərəcədə rəğbət və məhəbbət qazanmış olsun.

**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

XX əsrin 60-70 illərində müstəqil həyata qədəm qoymuş insanlar Heydər Əliyev məktəbindən dərs alıb formalaşan, onun həyat və fəaliyyətinin nümunəsində mənəvi cəhətdən yetişib bərkiyən insanlardır. Doğma vətənini və millətini həyatından da artıq sevən bu müdrik şəxsiyyət hər birimiz üçün xalqa təmənnasız xidmət etmək, sədaqət və ləyaqət rəmzidir. Ulu Öndər Heydər Əliyev sözün əsl mənasında, yüksək ideyalar carçısı idi. Ən müqəddəs idealı Azərbaycanı azad, firavan və qüdrətli bir ölkəyə çevirmək idi. O, bu amal yolunda ömrünü şam kimi əritdi, fəaliyyəti dövründə ölçüyəgəlməz işlər gördü. Bu gün Azərbaycanda fəxr etdiyimiz, iftixar və qürurla danışdığımız nə varsa, hamısı Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi fitri istedada, heyrətamiz təşkilatçılıq bacarığına malik bu böyük insan ölkəmizin iqtisadi inkişafının memarı olmaqla bərabər, elmin, təhsilin, incəsənət və mədəniyyətin yorulmaz hamisi idi. Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimlərinin əsl qiymətlərini alması, mənəvi dəstəklənməsi və dünya miqyasında tanınması məhz onun sayəsində mümkün olmuşdur.

Hər bir dövlətin müstəqilliyinin ən mühüm şərtlərindən biri kimi uğurlu xarici siyasətin böyük əhəmiyyəti danılmazdır. Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən və bütün tarixi dövrlərdə körpü rolunu oynayan Azərbaycanın müstəqil yanaşması üçün xarici siyasət həmişə başlıca, daha doğrusu, öncül rol oynamışdır. Bu gün də belədir. Zəngin yeraltı və yerüstü sərvətlərə, o cümlədən enerji ehtiyatlarına, çox önəmli hərbi strateji əhəmiyyətə malik olan və buna görə də xarici ölkələrin (ilk növbədə, böyük dövlətlərin) maraq dairəsinə daxil olan Azərbaycanın müstəqilliyinin qoruyub saxlamaq hər siyasətçinin işi deyil.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Uzun müddət təhsil sahəsində fəaliyyət göstərən bir kadr kimi cəsarətlə deyə bilərəm ki, istər 1970-1980-ci illərdə, istərsə də müstəqillik dövründə Heydər Əliyevin təhsil sahəsinə diqqəti, qayğısı və daimi nəzarəti olmasaydı, Azərbaycan təhsilinin bugünkü dinamik inkişafından belə danışmağa dəyməzdi.

**Təhsil sistemində insan kapitalının rolu**

Təhsil əsri elan edilən XXI əsrdə yüksək intelektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır və biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik.

Son illər aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmış, yoxsulluğun səviyyəsi minimuma enmiş və Azərbaycan Respublikası orta gəlirli ölkələr sırasında yer tutmuşdur. Gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır.

Ölkə qarşısında duran növbəti strateji vəzifə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın

**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Bunun üçün prioritet istiqamət ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsi ilə yanaşı, ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsidir. İnsan kapitalının inkişafı iqtisadiyyatın qlobal sistemə uğurlu inteqrasiyası və ölkənin beynəlxalq rəqabətdən daha effektli faydalanması prosesinə qoşulmaq, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımı şərait yaradır, onun biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır.Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Qeyd olunanlarla yanaşı, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağrışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsildə idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” (bundan sonra - Strategiya) Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamət müəyyənləşdirilmişdir.

– səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir;

– təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur;

– təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması;

– müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması;

– Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi.

– təhsil müəssisələrində internetə çıxış imkanları genişləndirilməklə təhsildə informasiya kommunikasiya texnologiyalarının səmərəli tətbiqi inkişaf etdirilməlidir.

Qlobal iqtisadi inkişafın tələblərinə uyğun şəkildə beynəlxalq təcrübədən istifadə təhsil

AUDİT 2023, 1 (39), səh. 108-117.
AUDIT 2023, 1 (39), pp. 108-117.
АУДИТ 2023, 1(39), стр. 108-117.

prosesində müasir informasiya texnologiyalarının sürətli tətbiqini zəruri edir.

Ümumi təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, regionlarda təhsilin bütün pillələri üzrə, o cümlədən ali təhsil pilləsini əhatə edən yeni təhsil ocaqlarının yaradılması və inklüziv təhsilin tətbiqi kimi tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasında təhsil sisteminin inkişafına xidmət edəcəkdir.

Təhsil sisteminin başlıca vəzifəsi ölkənin modernləşdirilməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabətqabiliyyətini yüksəltmək, məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdən ibarətdir.

Bundan əlavə, milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenlikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrları hazırlamaq və sistemləşdirilmiş, bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaqdan ibarətdir.

Strategiyanın məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik keyfiyyət nəticələrini və əhatəliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Azərbaycanın təhsil sistemi iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olmalıdır. Təhsil strategiyasının məqsədi təhsilin məzmununun, kadr hazırlığının, təhsili idarəetmə sisteminin və təhsil infrastrukturunun qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verəcək, ölkədə təhsilin təkmilləşdirilməsini, təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinə keçidi, ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsini həyata keçirir.

Müasir dövrdə təhsilin iqtisadi həyatda artan rolu Azərbaycanda prioritet istiqamət kimi bilik iqtisadiyyatının formalaşdırılmasını və insan kapitalının inkişafına dövlət dəstəyinin davam etdirilməsini, ümumən ölkədə ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasını müstəsna dərəcədə əhəmiyyətli edir. İnkişaf etmiş ölkələr davamlı və uğurlu iqtisadi tərəqqiyə məhz ali təhsil sisteminin beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsi sayəsində nail olmuşlar.

2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının əsas məqsədi ölkədə rəqabətqabiliyyətli iqtisadi sistemin formalaşdırılması və davamlı inkişafın təmin edilməsi baxımından ölkənin müasir tələblərə cavab verən kadrlara ehtiyacının ödənilməsi, "qara qızılın insan kapitalına çevrilməsi" olmuşdur.

Proqramın uğurlu icrası cəmiyyət həyatının ən müxtəlif sahələri üçün milli kadrların yetişdirilməsi ilə yanaşı, gənclərin elmə, müasir texnologiyalara və qabaqcıl biliklərə marağını xüsusilə artırmışdır. Proqram çərçivəsində təhsil almış və Azərbaycana qayıdaraq müxtəlif müəssisə və təşkilatlarda çalışmağa başlamış məzunlar ixtisas sahələrinə uyğun əmək fəaliyyəti ilə bərabər, qazandıqları bilik və təcrübəni ölkənin ali təhsil müəssisələrində paylaşaraq akademik fəaliyyətlə də məşğuldurlar. Proqram çərçivəsində ümumilikdə 3558 nəfər Azərbaycan vətəndaşı dünyanın 32 ölkəsinin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaq hüququ qazanmış, yüzlərlə gənc Harvard Universiteti, Oksvord Universiteti, Yel Universiteti və başqa nüfuzlu universitetlərdə ölkəmiz üçün əhəmiyyət daşıyan sahələrdə təh-

AUDİT 2023, 1 (39), səh. 108-117.
AUDIT 2023, 1 (39), pp. 108-117.
АУДИТ 2023, 1(39), стр. 108-117.

sil almış və ya almaqdadırlar. Həmin gənclər hazırda dünyanın aparıcı təşkilat və şirkətlərində (BMT, NASA, Mikrosoft, GOOGLE və. s) təcrübə keçməyə dəvət edilmişlər.

Onlar yaşadıqları ölkələrin ictimai-mədəni həyatında yaxından iştirak etməklə, Azərbaycan tarixinin, mədəniyyətinin, incəsənətinin təbliğində və diaspor işində xüsusi fəallıq göstərirlər.

Təhsilini yüksək akademik göstəricilərlə tamamlayan gənclər Azərbaycana qayıdaraq müxtəlif müəssisə və təşkilatlarda əmək fəaliyyətinə başlamışlar. Həmin məzunlar ali məktəblərin (ADA Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və. s) professor-müəllim heyətinin akademik bacarıqlarının müasirləşdirilməsində və tədrisin təşkilində nümunə olmaqla, həmin təhsil müəssisələrinin inkişaf prosesində mühüm rol oynayırlar.

Elmi pedaqogikanın qarşısında duran aktual problemlərdən biri şəxsiyyətin formalaşdırılmasıdır. Müxtəlif alim və mütəxəssislər tərəfindən müxtəlif versiyalar irəli sürülüb. Dünyanın inkişafı istiqamətində təkcə ayrı-ayrı insanlar yox, bəlkə də bütöv xalqı dəyişə bilən ən böyük amil təhsil fenomenidir demək olar. Bu baxımdan dünya ölkələri təhsil səviyyəsini yüksəltmək üçün yeni-yeni təhsil modelləri tətbiq edirlər. Burada Çin filosofu Konfutsinin bir fikrindən sitatı sizin diqqətinizə çatdırmaq istərdim: "Əgər bir illik planın varsa, taxıl ək, on illik planın varsa, bağ sal. Yüz illik planın varsa, insanları öyrət".

Ölkələrin inkişaf dinamikasına bir baxış keçirsək, görərik ki, onlar bu uğurları təhsil sisteminin yüksək olması ilə əldə ediblər. Ölkəmizdə aparılan sosial-iqtisadi siyasətin genişlənməsi əhalinin maddi rifah halının yaxşılaşmasına zəmin yaratmış, yoxsulluğun səviyyəsi minimuma enmişdir. Ölkədə sosial-iqtisadi mühitin müasirləşməsində təhsil sisteminin rolu böyükdür. Ölkədə təhsilin inkişafı ilə bağlı ardıcıl olaraq addımlar atılmışdır. Bu da ölkədə təhsil sisteminin rəqabətədavamlılıq göstəricisini yüksəltmişdir. Beynəlxalq təşkilatların araşdırmaları nəticəsində əldə olan statistik rəqəmlərə əsasən, Azərbaycan təhsil sektorunun reytinq səviyyəsinin yüksəldilməsi müəyyənləşdirilmişdir.

2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatların keçirilməsi üzrə Dövlət Proqramı qəbul edildi, bu da təhsilin müasir cəmiyyətin tələblərinə cavab verən, iqtisadiyyata əsaslanan bilik və bacarıqların yüksəldilməsi və təhsildə islahatların aparılmasına həsr edilmişdir.

Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin sərəncamı ilə 2013-cü il oktyabrında Azərbaycan Respublikasında Təhsilin İnkişafı Üzrə Dövlət Strategiyası qəbul edilmişdir. Qəbul olunmuş Dövlət Strategiyasında təhsildə keyfiyyət nəticələri, səriştəli müəllim və təhsil menecerləri, qabaqcıl texnologiyaya əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması və sair məsələlər öz əksini tapmışdır.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf konsepsiyasında insan kapitalının formalaşması inkişafına xüsusi diqqət verilir. Ölkədə həyata keçirilən ardıcıl və sistemli islahatların tərkib hissəsi kimi insan kapitalının inkişaf etdirilməsi istiqamətində sistemli islahatlar aparılır, təhsilin keyfiyyətinin yüksəldilməsi, "elm, təhsi, istehsal" əlaqələrinin və çevik idarəetmə mexanizminin qurulması ön plana çəkilir.

Bəşər sivilizasiyasında həlledici rol oynayan iqtisadi faktorlarla yanaşı, mənəvi amillərin böyük əhəmiyyəti və təsiri də danılmazdır. Bu mənada analitik araşdırmaya cəlb edilən ictimai inkişaf sahələrindən elmin rolu xüsusilə diqqəti çəkir. İctimai şüur forması kimi elmin iqtisadi-mənəvi inkişafı danılmaz həqiqətdir. Amma məsələnin bu mühüm cəhəti xeyli önəmli

**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

olduğu üçün ona qlobal əhəmiyyətli problem kimi yanaşmaq daha düzgün olardı.

Elmi istiqamətlərin, tədqiqat və nailiyyətlərin başlıca məqsədi bəşəriyyətin tərəqqisinə, iqtisadi-sosial, mədəni inkişafına xidmət etməsi ümumbəşəri mahiyyət daşıyır. Elmi nəticələrdən istifadənin fərqli olması isə məqsəd müxtəlifliyini yaradır. Məhz bu yanaşma ayrılıqları milli inkişafda tərəqqi və tənəzzül amillərinin qaynağına çevrilir. Bütövlükdə cəmiyyətin qazandıqlarının bazisində ictimai inkişaf meyilləri intişar tapır, bu əsasda dünyagörüşləri formalaşır.

Elmin ümumbəşəri mahiyyət daşıdığı məlumdur. Amma ondan istifadə olunması, inkişaf etdirilməsi praktiki surətdə nəticələrinin tətbiqi sahələrinin məhdudiyyət norması hər bir xalqın öz seçimidir. Elmi – texniki tərəqqiyə böyük əhəmiyyət verən millətlər onun cəmiyyət həyatına başlıca nüfuzedici təsirini düzgün qiymətləndirdikləri üçün bu gün öz ictimai-iqtisadi tərəqqisinin yüksəliş mərhələsini keçirirlər. Elmə iqtisadi-mədəni, mənəvi inkişafın əsas amillərindən biri kimi yanaşmaq azdır. Bu tendensiyanı real surətdə həyata keçirib, onu xalqın ümumi rifahı üçün istiqamətləndirmək lazımdır. Elmin qarşısında duran əsas problemlər əslində insanların həyatı ilə bağlı olduğu üçün onların müsbət həlli və real tətbiqi cəmiyyətin inkişafı üçün ən diqqəti çəkən vəzifədir. Bu vəzifələr Azərbaycan elminin də qarşısında öz uğurlu həllini gözləyir.

## YEKUN

Müasir dövrdə dövlətin təhsil sistemi müasir zamanın tələbinə uyğun kadrlar yetişdirməlidir. İqtisadi artım ilə bağlı irəli sürülən nəzəriyyələr və modellər də birbaşa və dolayı yolla təhsil sisteminin müasirləşdirilməsini əks etdirir. İnsan kapitalı faktorunun əhəmiy-yətinin getdikcə artması da məhz bu proseslə bağlıdır. Texnoloji tərəqqinin təsiri ilə yaranan yeni məhsullar bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də yalnız uyğunlaşma dövründə qismən istifadə oluna bilər, bu dövr bitdikdən sonra yeni məhsul, bu halda elektron təhsil, ta-mamilə köhnənin yerinə keçir. Məsələn, kompüterlərdən istifadə yazı makinalarının istifa-dədən qaldırılmasına səbəb oldu.

Rəqəmsal təhsil sistemi indi gündəmdədir. Ənənəvi məktəb və universitet faydasızdır, daha doğrusu, ənənəvi təhsil faydasızdır. Doğrudanmı bu belədir? Bəs bu günkü inkişafı han-sı təhsil yaradıb? Kosmos, atom, kompüter, internet, süni intelekti hansı təhsil yaradıb? Bu fayda deyil bəs nədir?

Cəmiyyət bu suallara cavab verməlidir. Ardıcıl olaraq Space X- ilk çoxdəfəli raket uçuşlarını həyata keçirən firmanın yaradıcısı Elon Musk hökm edir ki, ənənəvi təhsil faydalı deyil. Elon Mask ali təhsilin əleyhinədir, və fudamental təhsilin tərəfdarıdır. E.Maska görə:

- təhsillə təcrübəni əlaqələndirmək, öyrənmənin təcrübə vasitəsilə həyata keçirilməsini təmin etmək;
- uşaqları problemi həll etməyə yönləndirmək;
- uşaqların maraqlarını hər şeydən üstün tutmaq;
- fizika elmi hamıya lazımdır.

XXI əsr rəqəmsal texnologiyaların inkişafı, informasiya sahəsində inqilablar və iqtisadiyyatın qloballaşması ilə xarakterizə olunur. Aydındır ki, rəqəmsal təhsil olmadan rəqəmsal iqtisadiyyat mümkün deyil. İE və İEOÖ –də dövlət səviyyəsində rəqəmsal iqtisadiyyat yaranmamışdan 10-15 il öncə “e-learning”, virtual universitetlərin yaradılması, mövcud təhsil ocaqlarının elektronlaşdırılması, virtual və şəbəkə universitetlərinin “smart” (ağıllı) universitetlərə çevrilməsilə bağlı qərarlar qəbul olunmuş və reallaşdırılmışdır. İnkişaf etmiş ölkələrdə rəqəmsal təhsil rəqəmsal iqtisadiyyatın yaranma mərkəzinə çevrilir. Elektron cəmiyyətə ənənəvi məşğulluq modellərinin solğunlaşması, tam yeni səlahiyyətlər, yeni identifikasiya və şəxsiyyətin

**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

inkişaf forması kimi "şəbəkə şəxsiyyəti" nin formalaşması xarakterikdir.

Rəqəmsal təhsilin əsasını rəqəmsal öyrənmə təşkil edir və məqsədi təhsil prosesinin bütün iştirakçılarına onların fəaliyyətlərinin effektivliyinin artırılması üçün tələb olunan məhsul və xidmətlərlə təmin etməkdir.

İxtisaslaşmış kadr təminatının artırılması iqtisadi inkişafa təsir edən əsas amillərdən biri hesab edilir. Rəqəmsal təhsilin ən vacib üstünlüklərindən biri təhsili əlçatan etməsidir. Avropa Komissiyası təhsilin texnologiyanı dəstəkləmək və rəqəmsal yetkinliyin inkişafı üçün 11 tədbirdən ibarət olan Rəqəmsal Təhsil Fəaliyyət Planını qəbul etmişdir. Tədbirlər Planında Avropa İttifaqı Üzv Dövlətlərinin rəqəmsal yaş dövründə təhsilin çətinlikləri və imkanlarına cavab vermək üçün tədbirlər müəyyən edən üç prioritet vardır:

1.Tədris və öyrənmə üçün rəqəmli texnologiyaların daha yaxşı istifadə edilməsi;

1.1. Məktəblərdə əlaqə;

1.2. Məktəblər üçün SELFİE özünü göstərmə vasitəsi və təlimatlandırma sxemi;

1.3.Rəqəmsal İmzalanmış Qaydalar.

Əlavə olaraq, müxtəlif ölkələrdən olan alimlərin rəqəmsal təhlillə bağlı apardıqları tədqiqatların bir neçəsini də nümunə olaraq qeyd edə bilərik. Pavel Makosa Polşada rəqəmsal təhsilin xüsusiyyətlərini, onun həyata keçirilməsinin hazırki vəziyyətini, gözlənilən nəticələrini və bu mövzuda yaranan problemləri araşdıraraq öz məqaləsində əks etdirmişdir. Portuqaliyalı bir neçə alim də, bu sahədə müəyyən tədqiqatlar aparmış və bu tədqiqatın əsas məqsədi, öyrənmə prosesini gücləndirən müxtəlif metodologiyaları tətbiq etməkdən ibarətdir.

Milli elmi kadrlarımızın ümumdünya miqyasında qazandığı nailiyyətlərin sferası məlumdur. Qazanılan uğurlara münasibətdə daha əhəmiyyətli, ümumbəşəri mahiyyətli elmi ideya və nəticələrə ümüdlər vətəndaş qüruru və iftixar hissindən irəli gəlir. İnanırıq ki, tanınmış elm xadimlərimizlə gənc mütəxəssislərin birgə faydalı əməkdaşlığı Azərbaycan elmini dünya miqyasında tanıdacaq mühüm nailiyyətlərin zəmanəti olacaqdır.

Müstəqil Azərbaycan dövlətinin qurucusu olan fenomen şəxsiyyət Heydər Əliyevin adı dünya siyasəti tarixinə hələ sağlığında ikən qızıl hərflərlə yazılmasına baxmayaraq, onun tarixdə əsl qiymətini və müstəsna rolunu gələcək nəsillər daha aydın dərk edəcəklər. İllər ötdükcə zaman Ümummilli Liderimiz Heydər Əliyevi Azərbaycanın hər bir namuslu vətəndaşına daha artıq yaxınlaşdıracaqdır.

## İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateiji Yol Xəritəsi. Bakı, 06.12.2016

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası. Bakı, 24.10.2013.

3. Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı, 06.12.2016.

4. Azərbaycanın Statistik göstəriciləri Bakı, 2017. 814 səh.

5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 19-cu kitab. 1999-aprel, 1999. Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasında Yekun nitqi.17 mart 1999-cu il. Bakı, 2006. 527 səh.

6. Əliyev İ.H. İnkişaf məqsədimiz. İyirmi altıncı kitab. Avqust 2007-oktyabr 2007. Bakı, 2015. 400 seh.

**AUDİT 2023, 1 (39), səh. 108-117.**
**AUDIT 2023, 1 (39), pp. 108-117.**
**АУДИТ 2023, 1(39), стр. 108-117.**

*Puste Oruj Farhadi,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Baku Business University,*
*E-mail: emin.turant1@gmail.com;*
*Gunay Rasim Rasulova,*
*Ph.D. Student,*
*Baku Business University,*
*E-mail: gunay.kerimova85@mail.ru*
*©G.R. Rasulova, P.O. Farhadi, 2023*

## DIRECTIONS FOR FORMATION OF HUMAN CAPITAL IN ECONOMIC DEVELOPMENT STRATEGY OF HEYDAR ALIYEV

### A B S T R A C T

Heydar Aliyev is the creator of modern democratic Azerbaijan. Heydar Aliyev is a powerful personality who successfully brought his people out of the complex historical and political trials of the time and brought them to independence through consistent struggle. The people of Azerbaijan entered the new century and the new millennium precisely in the light of Heydar Aliyev's intelligence. Modern Azerbaijan, confidently advancing on the path of continuous progress, is a celebration of Heydar Aliyev's life work.

**Keywords:** human capital, economic development, education, digital education, digital technology.

*Фархади Пусте Орудж кызы,*
*доктор философии по экономике,*
*доцент,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: emin.turant1@gmail.com;*
*Расулова Гунай Расим кызы,*
*докторант,*
*Бакинский Университет Бизнеса,*
*E-mail: gunay.kerimova85@mail.ru*
*© Фархади П.О., Расулова Г. Р., 2023*

## НАПРАВЛЕНИЯ ФОРМИРОВАНИЯ ЧЕЛОВЕЧЕСКОГО КАПИТАЛА В СТРАТЕГИИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ГЕЙДАРА АЛИЕВА

### Р Е З Ю М Е

Гейдар Алиев – создатель современного демократического Азербайджана. Гейдар Алиев – могущественная личность, успешно выведшая свой народ из сложных исторических и политических испытаний времени и последовательной борьбой приведшая его к независимости. Азербайджанский народ вступил в новый век и новое тысячелетие именно в свете ума Гейдара Алиева. Современный Азербайджан, уверенно идущий по пути непрерывного прогресса, является торжеством дела всей жизни Гейдара Алиева.

**Ключевые слова:** человеческий капитал, образование, цифровое образование, цифровые технологии, экономическое развитие.

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 23.02.2023*
*Çapa qəbul olunmuşdur: 06.02.2023*

*Дата поступления статьи в редакцию: 13.01.2023*
*Отправлено на повторную обработку: 23.02.2023*
*Принято к печати: 06.02.2023*

*The date of the admission of the article to the editorial office: 13.01.2023*
*Send for reprocessing: 23.02.2023*
*Accepted for publication: 06.02.2023*